Azərbaycan Respublikası
Nazirlər Kabinetinin 2026-cı il
“ 24 ” noyabr tarixli
392 nömrəli Qərarı ilə
təsdiq edilmişdir.

Gənclərin çağırışaqədərki hazırlığı haqqında

ƏSASNAMƏ

1. Ümumi müddəalar

1.1. Bu Əsasnamə “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikası Qanununun (bundan sonra – Qanun) 9.4-cü maddəsinə uyğun olaraq hazırlanmışdır və mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq ümumi təhsil, peşə və orta ixtisas təhsili müəssisələrində (bundan sonra – təhsil müəssisələri) təhsil alan gənclərin (bundan sonra – gənclər) çağırışaqədərki hazırlığının (bundan sonra – çağırışaqədərki hazırlıq) təşkili və keçirilməsi qaydalarını müəyyən edir.

1.2. Çağırışaqədərki hazırlıq “Hərbi vəzifə və hərbi xidmət haqqında”, “Təhsil haqqında”, “Peşə təhsili haqqında” və “Ümumi təhsil haqqında” Azərbaycan Respublikasının qanunlarına, bu Əsasnaməyə və Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarına əsasən həyata keçirilir.

1.3. Çağırışaqədərki hazırlıq gənclərin Azərbaycan Respublikasının müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün müdafiə olunmasına hazırlanmasını, onlarda Vətənin müdafiəsinin təmin edilməsinə görə məsuliyyət hissinin və vətənpərvərlik şüurunun formalaşdırılmasını, habelə gələcək hərbi xidmət üçün zəruri olan nəzəri biliklərə, praktiki vərdişlərə və fiziki hazırlığa yiyələnməsini təmin edən tədris prosesidir.

1.4. Azərbaycan Respublikasının müdafiəsi məqsədilə müddətli həqiqi hərbi xidmətə çağırılmalı olan hər bir gənc çağırışaqədərki hazırlıq prosesində Azərbaycan Respublikası Konstitusiyasının və digər normativ hüquqi aktların Vətənin müdafiəsi, habelə hərbi xidmətkeçmənin hüquqi əsasları ilə bağlı müddəalarını mənimsəməlidir. Çağırışaqədərki hazırlıq dövründə gənclərdə milli şüurun formalaşdırılması, onların dövlətçilik prinsiplərinə, xalqa və milli-mədəni dəyərlərə sadiqlik ruhunda tərbiyə olunması, Vətənin müdafiəsinin Azərbaycan Respublikasının Konstitusiyasında təsbit edilmiş vətəndaş borcu olmasının şüurlu şəkildə dərk edilməsi təmin olunmalıdır.

1.5. Çağırışaqədərki hazırlıq dövründə gənclərin milli müdafiənin əsasları və müasir hərbi-texniki vasitələr, pilotsuz uçuş aparatları, müasir silahlar, elektron mühafizə sistemləri, süni intellekt texnologiyaları, kibertəhlükəsizliyin və informasiya təhlükəsizliyinin təmin edilməsi metodları, mülki müdafiənin təşkili prinsipləri, təbii və texnogen xarakterli fövqəladə hallar zamanı davranış və mühafizə üsulları, habelə ilkin tibbi yardımın göstərilməsi, sağlamlığın və təhlükəsizliyin qorunması, psixoloji

dayanıqlılığın gücləndirilməsi, sanitariya-gigiyena qaydalarına əməl olunması barədə zəruri nəzəri biliklərə və praktiki vərdişlərə yiyələnməsi təmin edilir.

1.6. Çağırışaqədərki hazırlıq təhsil müəssisələrində dövlət əhəmiyyətli fənn kimi çağırışaqədərki hazırlıq rəhbəri tərəfindən tədris olunur.

1.7. Təhsil müəssisələrində çağırışaqədərki hazırlığa və hərbi vətənpərvərlik tərbiyəsi işlərinə ümumi metodiki rəhbərlik Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi (bundan sonra – Nazirlik) tərəfindən həyata keçirilir.

1.8. Bu Əsasnamədə istifadə olunan anlayışlar Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə müəyyən edilmiş mənaları ifadə edir.

2. Çağırışaqədərki hazırlığa rəhbərlik və aidiyyəti qurumların bu sahədəki vəzifələri

2.1. Çağırışaqədərki hazırlığa ümumi rəhbərlik və nəzarət Nazirlik (Naxçıvan Muxtar Respublikasının ərazisində Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyi) və Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin (bundan sonra – Xidmət) yerli baş idarə, idarə, şöbə və bölmələri (bundan sonra – Xidmətin strukturuna daxil olan qurumlar), digər dövlət orqanlarının (qurumlarının) tabeliyində olan təhsil müəssisələrinə və bələdiyyə təhsil müəssisələrinə münasibətdə həmçinin həmin dövlət orqanları (qurumları) və bələdiyyələr, habelə çağırışaqədərki hazırlığın keçirildiyi dövlət, bələdiyyə və özəl təhsil müəssisələrinin özləri tərəfindən əsasnamələrinə (nizamnamələrinə) uyğun olaraq həyata keçirilir.

2.2. Nazirlik Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi və Xidmətlə razılaşdırmaqla, təhsil müəssisələri üçün çağırışaqədərki hazırlıq fənni üzrə dərslikləri və hərbi vətənpərvərlik mövzusunda dərs vəsaitlərini hazırlayır.

2.3. Təhsil müəssisələrinin çağırışaqədərki hazırlıq üçün zəruri olan tədris və əyani vasitələrlə təchizatı aidiyyəti üzrə Nazirlik (Naxçıvan Muxtar Respublikasının ərazisində Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyi), digər dövlət orqanlarının (qurumlarının) tabeliyində olan təhsil müəssisələrinə və bələdiyyə təhsil müəssisələrinə münasibətdə həmin dövlət orqanları (qurumları) və bələdiyyələr, özəl təhsil müəssisələrinə münasibətdə isə həmin müəssisələr (bundan sonra – aidiyyəti qurumlar) tərəfindən həyata keçirilir.

2.4. Aidiyyəti qurumlar Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi və Xidmətlə birlikdə gənclərin hərbi biliklərə dərindən yiyələnməsi və praktiki vərdişlərinin təkmilləşdirilməsi məqsədilə hərbi idman oyunlarının təşkilini və keçirilməsini təmin edirlər.

2.5. Nazirlik Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və Xidmətlə birlikdə gənclərin hərbi vətənpərvərlik tərbiyəsi ilə bağlı fəaliyyətin forma və metodlarını müəyyən edir, bununla bağlı aidiyyəti qurumlar tərəfindən dərsdənkənar (auditoriyadankənar) hərbi vətənpərvərlik tədbirlərinin təşkili və həyata keçirilməsi təmin olunur.

2.6. Nazirlik və Xidmət çağırışaqədərki hazırlıq fənninin tədrisində Vətənin müdafiəsinin hər bir vətəndaşın borcu və şərəfli vəzifəsi olduğunun dərk edilməsi,

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin (bundan sonra – Silahlı Qüvvələr) vəzifələrinin, xüsusiyyətlərinin və əhəmiyyətinin dərindən öyrədilməsi, habelə hərbi bilik və bacarıqların gənclərə aşılanması və gənclərin müddətli həqiqi hərbi xidmətə hazırlığı və hərbi vətənpərvərlik ruhunda tərbiyə edilməsi sahəsində fəaliyyətin təşkilində fərqlənən çağırışaqədərki hazırlıq rəhbərlərinin qabaqcıl təcrübəsini öyrənir və təhsil müəssisələri arasında yayılmasını təmin edirlər.

2.7. Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi Nazirlik və Xidmətlə birlikdə gənclərin tibbi-sanitariya təliminin, təcrübə dərslərinin dövlət tibb müəssisələrində keçirilməsini və bununla əlaqədar tövsiyələrin və proqramların hazırlanmasını təmin edir.

2.8. Təhsil müəssisələri üçün çağırışaqədərki hazırlığa aid tədris-metodiki filmlərin hazırlanması və yayılması Xidmət tərəfindən Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin tabeliyində Kino Agentliyinin metodiki-yaradıcılıq dəstəyi ilə həyata keçirilir.

2.9. Xidmətin strukturuna daxil olan qurumlar bu Əsasnamənin 2.1-ci bəndində nəzərdə tutulmuş digər dövlət orqanları (qurumları) və bələdiyyələrlə birlikdə tədris ili ərzində iş planına uyğun olaraq, təhsil müəssisələrində çağırışaqədərki hazırlığın vəziyyəti ilə tanış olurlar.

3. Təhsil müəssisələrində direktor və çağırışaqədərki hazırlıq rəhbərinin vəzifələri

3.1. Təhsil müəssisəsinin direktoru (bundan sonra - direktor) çağırışaqədərki hazırlıq fənninin tədrisinin, hərbi vətənpərvərlik tərbiyəsi işinin təşkilinin və həyata keçirilməsinin, habelə təlim silahlarının və sursatlarının müəyyən edilmiş qaydalara uyğun saxlanılmasının təmin edilməsinə şəxsən məsuliyyət daşıyır.

3.2. Direktor:

3.2.1. çağırışaqədərki hazırlıq fənni üzrə təhsil proqramının tam keyfiyyətlə yerinə yetirilməsini təmin edir;

3.2.2. çağırışaqədərki hazırlıq dərslərinin səmərəli və keyfiyyətli keçirilməsi üçün yer (çağırışaqədərki hazırlıq üçün kabinet, sinif otağı, praktiki dərslərin aparılması üçün meydançalar və s.) ayırır;

3.2.3. çağırışaqədərki hazırlıq fənni üzrə təhsil proqramının materiallarının gənclər tərəfindən mənimsənilməsi üzrə zəruri tədbirlər həyata keçirir;

3.2.4. təlim silahlarının və sursatlarının, habelə bu Əsasnamənin 7.1-ci və 7.3-cü bəndlərində nəzərdə tutulan digər əmlakın saxlanılması üçün xüsusi avadanlıqla təchiz edilmiş və mühafizə olunan otağın ayrılmasını təmin edir, rübdə bir dəfədən az olmayaraq göstərilən əmlakın uçotunun düzgünlüyünü yoxlayır, texniki vəziyyətinin yoxlanılmasını və zərurət yarandıqda təmirini təşkil edir;

3.2.5. çağırışaqədərki hazırlıq rəhbərinə təlim prosesinin həyata keçirilməsində metodiki dəstək göstərir, çağırışaqədərki hazırlıq fənninin digər tədris fənləri ilə əlaqələndirilməsini təmin edir, habelə müvafiq dərnəklərin və dərsdənkənar məşğələlərin təşkilini həyata keçirir;

3.2.6. çağırışaqədərki hazırlıq rəhbəri tərəfindən tədris prosesinin təşkil edilməsinə, gənclərin proqram üzrə mənimsədikləri biliklərin qiymətləndirilməsinin

obyektivliyinə nəzarəti həyata keçirir və ildə iki dəfədən az olmayaraq çağırışaqədərki hazırlıq fənninin tədrisi, hərbi vətənpərvərlik tərbiyəsi işlərinin təşkili, bu sahədə maddi-tədris bazasının vəziyyəti və onun təkmilləşdirilməsi ilə bağlı məsələlərə pedaqoji şuranın iclaslarında baxılmasını təşkil edir;

3.2.7. gənclərin sırasından manqa və taqım komandirlərinin təyin edilməsi haqqında əmrlər verir;

3.2.8. tədris ilinin yekunlarına dair çağırışaqədərki hazırlıq fənni üzrə hesabatı bu Əsasnamənin 2.1-ci bəndinə əsasən rəhbərlik etdiyi təhsil müəssisəsində çağırışaqədərki hazırlığa nəzarəti həyata keçirən quruma (qurumlara) və Xidmətin strukturuna daxil olan aidiyyəti quruma təqdim edir.

3.3. Çağırışaqədərki hazırlıq rəhbəri bilavasitə direktora tabe olmaqla, gənclərin çağırışaqədərki hazırlığına görə şəxsən məsuliyyət daşıyır. Çağırışaqədərki hazırlıq rəhbəri təlim silahlarının və sursatlarının, habelə bu Əsasnamənin 7.1-ci və 7.3-cü bəndlərində nəzərdə tutulan digər əmlakın saxlanılmasına, uçotunun aparılmasına, tədris prosesində istifadəsi üçün verilməsinə və dərslərin keçirilməsi zamanı təhlükəsizlik qaydalarına ciddi əməl edilməsinə cavabdehdir.

3.4. Çağırışaqədərki hazırlıq rəhbəri:

3.4.1. çağırışaqədərki hazırlıq üzrə dərslərin təhsil proqramına uyğun olaraq vaxtında keçirilməsini təmin edir, bu sahədə dərsdənkənar məşğələ və dərnəklərə rəhbərlik edir;

3.4.2. daimi olaraq özünün hərbi və pedaqoji biliklərini artırır və peşəkarlıq səviyyəsini təkmilləşdirir;

3.4.3. çağırışaqədərki hazırlıq üçün kabinetə, təlim silahlarının və sursatlarının, habelə bu Əsasnamənin 7.1-ci və 7.3-cü bəndlərində nəzərdə tutulan digər əmlakın saxlanıldığı otağa və onların texniki vəziyyətinə şəxsən nəzarət edir, çağırışaqədərki hazırlığın maddi-tədris bazasının təkmilləşdirilməsi və inkişafı üçün zəruri tədbirlər görür;

3.4.4. təlim silahlarının və sursatlarının, habelə bu Əsasnamənin 7.1-ci və 7.3-cü bəndlərində nəzərdə tutulan digər əmlakın uçot kitabı üzrə faktiki mövcudluğunu və texniki vəziyyətini ayda bir dəfədən az olmayaraq yoxlayır;

3.4.5. pedaqoji kollektivlə birlikdə gənclərin hərbi vətənpərvərlik tərbiyəsinin təkmilləşdirilməsi və hərbi vətənpərvərlik hisslərinin formalaşdırılması üçün Azərbaycan Respublikası Silahlı Qüvvələri Gününün və Zəfər Gününün qeyd edilməsini, Azərbaycan Respublikasının Vətən Müharibəsi Qəhrəmanları və Azərbaycanın Milli Qəhrəmanları, müharibə veteranları ilə görüşlərin keçirilməsini, müvafiq mövzuda kinofilmlərin nümayişini təşkil edir, hərbi idman oyunlarının keçirilməsinə rəhbərlik edir və müvafiq metodiki dəstək göstərir, fiziki tərbiyə müəllimi ilə birgə atıcılıq hazırlığı, qumbaraatma və mülki müdafiə üzrə müəyyən edilmiş normativləri qəbul edir;

3.4.6. çağırışaqədərki hazırlıq və hərbi vətənpərvərlik mövzusu üzrə rayon, şəhər və şəhər rayonlarında həyata keçirilən yarışlarda və oyunlarda gənclərin iştirakını təşkil və təmin edir;

3.4.7. gənclərin peşə yönümünün hərbi ixtisaslara istiqamətləndirilməsi və onlarda hərbi ixtisasların əhəmiyyəti ilə bağlı təsəvvürün yaranması üçün zəruri tədbirlər görür;

3.4.8. gənclərə hərbi xidmət barədə ilkin biliklərin verilməsi məqsədilə hərbi hissələr, hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı təhsil müəssisələri, Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin və Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin strukturuna daxil olan qurumlar, həmçinin vətəndaş cəmiyyəti institutları ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir, onların dəstəyindən istifadə edir;

3.4.9. çağırışaqədər yaş həddində olan vətəndaşların ilkin hərbi qeydiyyata alınması üçün Xidmətin strukturuna daxil olan qurumlara praktiki kömək göstərir.

3.5. Çağırışaqədərki hazırlıq rəhbərinin iş vaxtı, dərs yükü (dərs cədvəli), dərsdənkənar tədbirlər planı direktor tərəfindən təsdiq edilən fərdi iş planına əsasən müəyyən edilir.

3.6. Çağırışaqədərki hazırlıq rəhbəri eyni zamanda təhsil müəssisəsində yalnız dərnək rəhbəri vəzifəsinə təyin edilə bilər.

4. Çağırışaqədərki hazırlığın təşkili və keçirilməsi

4.1. Çağırışaqədərki hazırlıq fənni ümumi təhsil, peşə və orta ixtisas təhsili üzrə dövlət təhsil standartlarına uyğun olaraq müvafiq tədris planlarına əsasən tədris olunur və çağırışaqədərki hazırlıq dərsləri nəzəri və praktiki hissələrdən ibarət olmaqla təşkil edilir.

4.2. Təhsil müəssisələrində çağırışaqədərki hazırlıq fənninin tədrisinə tədris planlarına uyğun olaraq dərs saatları ayrılır.

4.3. Çağırışaqədərki hazırlıq dərsləri təhsil alan oğlan və qızlar üçün birlikdə təşkil edilir.

4.4. Direktorun əmri ilə nümunəvi davranışı, intizamı və təlim nailiyyətləri ilə fərqlənən gənclər sırasından hər sinif (qrup) üzrə taqım və manqa komandirləri təyin edilir.

4.5. Həqiqi hərbi xidmət keçmiş, habelə əvvəllər təhsil aldığı təhsil müəssisəsində çağırışaqədərki hazırlıq fənni üzrə təhsil proqramını tam bitirmiş şəxslər bundan sonra qəbul olunduqları təhsil müəssisəsində çağırışaqədərki hazırlıq dərslərinə cəlb edilmirlər.

4.6. Təhsil müəssisələrində hərbi işin öyrənilməsinə xüsusi maraq göstərən gənclər üçün dərsdənkənar vaxtlarda nəzəri və praktiki məşğələlərin təşkil olunması təmin edilir.

4.7. Təhsil müəssisələrində gənclərin vətənpərvərlik tərbiyəsi işinin səmərəli həyata keçirilməsi məqsədilə Azərbaycan Respublikasının “Vətən Müharibəsi Qəhrəmanı”, “Azərbaycanın Milli Qəhrəmanı” adı almış şəxslərə, şəhidlərə, müharibə iştirakçılarına aid stend və guşələr (muzeylər) təşkil olunur.

4.8. Hər tədris ilinin sonunda təhsil müəssisələrində çağırışaqədərki hazırlıq fənninin tədrisinin başa çatması ilə əlaqədar gənclərin hərbi fiziki hazırlıq səviyyəsinin yüksəldilməsi, onların hərbi vətənpərvərlik ruhunda tərbiyə edilməsi və maarifləndirilməsi məqsədilə hərbi idman tədbirləri təşkil edilir.

5. Təhsil müəssisələrinin çağırışaqədərki hazırlıq rəhbərləri ilə kadr təminatı

5.1. Təhsil müəssisələrində çağırışaqədərki hazırlıq rəhbəri vəzifəsinə aşağıdakı şəxslər Xidmətin strukturuna daxil olan qurumlarla razılaşdırılmaqla, direktor tərəfindən təyin edilir:

5.1.1. ümumi və peşə təhsil müəssisələrində – ali və ya orta ixtisas hərbi təhsilli, yaxud ali mülki təhsilli ehtiyatda (istefada) olan zabitlər, ali təhsil müəssisələrini "Fiziki tərbiyə və çağırışaqədərki hazırlıq müəllimliyi" ixtisası üzrə bitirmiş və həqiqi hərbi xidmət keçmiş şəxslər, müharibə veteranı adı verilmiş ali və ya orta ixtisas təhsilli hərbi vəzifəlilər, qeyd olunan kateqoriyadan şəxslər olmadığı halda ehtiyatda (istefada) olan ali və ya orta ixtisas təhsilli gizir (miçman) və çavuşlar;

5.1.2. orta ixtisas təhsil müəssisələrində – ali təhsilli ehtiyatda (istefada) olan zabitlər, ali təhsil müəssisələrini "Fiziki tərbiyə və çağırışaqədərki hazırlıq müəllimliyi" ixtisası üzrə bitirmiş və həqiqi hərbi xidmət keçmiş şəxslər, müharibə veteranı adı verilmiş ali təhsilli hərbi vəzifəlilər, qeyd olunan kateqoriyadan şəxslər olmadığı halda ehtiyatda (istefada) olan ali təhsilli gizir (miçman) və çavuşlar.

5.2. Qanunun 41.0.6 – 41.0.8-ci və 42.0.3-cü maddələri, habelə Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Hərbi xidmətkeçmə haqqında Əsasnamə"nin 156-cı maddəsinin "e" və "ə" bəndləri, 158-ci maddəsinin "a" və "b" bəndləri ilə ehtiyata (istefaya) buraxılmış, eləcə də "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 36-1.2-ci maddəsində nəzərdə tutulmuş şəxslər çağırışaqədərki hazırlıq rəhbəri vəzifəsinə təyin edilə bilməzlər.

5.3. Pedaqoji təhsili olmayan çağırışaqədərki hazırlıq rəhbərləri üçün Nazirlik tərəfindən müvafiq pedaqogika, psixologiya və təlim strategiyaları ilə bağlı təlim kursları təşkil edilir.

5.4. Silahlı Qüvvələrdə və hərbi xidmət nəzərdə tutulmuş digər dövlət orqanlarında (dövlət orqanlarının strukturuna daxil olan qurumlarda), o cümlədən keçmiş sovet ordusunda hərbi xidmət keçmiş çağırışaqədərki hazırlıq rəhbərlərinin xidmət illəri pedaqoji stajlarına daxil edilir.

6. Çağırışaqədərki hazırlıq rəhbərlərinin ixtisaslarının artırılması

6.1. Aidiyyəti qurumlar Xidmətlə birlikdə tədris prosesinin təşkilinin və çağırışaqədərki hazırlıq fənninin tədrisi üzrə keyfiyyətin yüksəldilməsi, çağırışaqədərki hazırlıq rəhbərlərinin pedaqoji və hərbi sahələr üzrə bilik səviyyəsinin, peşəkarlığının və metodiki ustalığının artırılması, habelə gənclərin hərbi vətənpərvərlik tərbiyəsi işinin səmərəliliyinin yüksəldilməsi məqsədilə çağırışaqədərki hazırlıq rəhbərlərinin ixtisasının artırılmasını təmin edirlər.

6.2. Çağırışaqədərki hazırlıq rəhbərlərinin hərbi biliklərinin təkmilləşdirilməsi məqsədilə Xidmət kurslar təşkil edir.

6.3. Aidiyyəti qurumlar çağırışaqədərki hazırlıq rəhbərlərinin Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Milli Müdafiə Universiteti tərəfindən təşkil olunan ixtisasartırma kurslarında iştirakını təmin edirlər.

6.4. Xidmətin strukturuna daxil olan qurumlar aidiyyəti qurumlarla birlikdə Xidmətin Nazirliklə birgə təsdiq etdiyi proqram üzrə hər tədris ilinin başlanğıcına qədər

çağırışaqədərki hazırlıq rəhbərləri üçün 5 (beş) günlük tədris-metodiki təlim keçirirlər. Təlimdə ötən tədris ilinin nəticələri təhlil edilir, yeni tədris ilində qarşıda duran vəzifələr müzakirə olunur, çağırışaqədərki hazırlıq rəhbərlərinin qabaqcıl iş təcrübələri öyrənilir və praktik dərslər keçirilir.

6.5. Xidmətin strukturuna daxil olan qurumlar aidiyyəti qurumlarla birlikdə çağırışaqədərki hazırlıq rəhbərləri üçün hər ayın sonuncu həftəsinin cümə günü məşğələlər, qış tətili günlərində isə 3 (üç) günlük metodiki seminar təşkil edirlər.

6.6. Çağırışaqədərki hazırlıq rəhbərlərinə metodiki hazırlıq (qabaqcıl iş təcrübəsinin öyrənilməsi, tövsiyələrin hazırlanması, maddi-tədris bazasının təkmilləşdirilməsi və s.) üçün həftədə 1 (bir) iş günü verilir.

7. Çağırışaqədərki hazırlığın maddi-texniki təminatı

7.1. Xidmətlə razılaşdırmaqla aidiyyəti qurumlar Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin strukturuna daxil olan və ya tabeliyində olan qurumlarla, eləcə də onların strukturuna daxil olan və ya tabeliyində olan müəssisələrlə bağlanılmış müqavilələrə uyğun olaraq çağırışaqədərki hazırlıq fənninin tədrisi və hərbi vətənpərvərlik tərbiyəsi işinin təşkili və keçirilməsi üçün təhsil müəssisələrini təlim silahları və sursatları, fərdi mühafizə vasitələri, kimyəvi və radiasiya kəşfiyyatı cihazları və digər zəruri ləvazimatlarla təmin edirlər.

7.2. Çağırışaqədərki hazırlıq üzrə tədris prosesinin səmərəli təşkili məqsədilə aidiyyəti qurumların müvafiq müraciəti əsasında təhsil müəssisələri Azərbaycan Respublikası Müdafiə Nazirliyinin tabeliyində olan atıcılıq tirlərindən və poliqonlardan ödənişsiz əsaslarla istifadə edirlər.

7.3. Aidiyyəti qurumlar təhsil müəssisələrinin tibbi hazırlıq üzrə tələb olunan bütün ləvazimatlarla, o cümlədən sanitar çantaları, xərəklər və digər zəruri tibbi avadanlıqlarla təchiz olunmasını təmin edirlər.

7.4. Təhsil müəssisələrində çağırışaqədərki hazırlıq fənninin və hərbi vətənpərvərlik tərbiyəsi işlərinin səmərəli və keyfiyyətli tədrisi və təşkili üçün çağırışaqədərki hazırlığın maddi-tədris bazası yaradılır və onun təkmilləşdirilməsi təmin edilir.

7.5. Çağırışaqədərki hazırlığın maddi-tədris bazasına aşağıdakılar daxildir:

7.5.1. çağırışaqədərki hazırlıq üçün kabinet;

7.5.2. təlim silahları və sursatları, habelə bu Əsasnamənin 7.1-ci və 7.3-cü bəndlərində nəzərdə tutulan digər əmlaklar;

7.5.3. bu Əsasnamənin 7.5.2-ci yarımbəndində nəzərdə tutulan əmlakın saxlanılması üçün otaq;

7.5.4. sıra təlimi meydançası;

7.5.5. qarovul və sutkalıq naryad heyətinin vəzifələrinin praktiki şəkildə öyrənilməsi üçün nəzərdə tutulmuş xüsusi təlim sahəsi.

7.6. Çağırışaqədərki hazırlıq üçün kabinetlərdə çağırışaqədərki hazırlıq fənninin tədrisindən başqa digər fənlərin tədris edilməsinə yol verilmir.

———————————